# XIV-XV əsrlər Azərbaycan ədəbiyyatında Nizami “Xəmsə”sinə nəzirələr (Cəmalinin “Xəmsə”si əsasında)

**Mehdi Kazımov**
*Şərqşünaslıq İnstititunun Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin müdiri, f.ü.e.d., professor*

XIV-XV əsrlər Azərbaycan ədəbiyyatının orta əsrlər tarixində sonrakı inkişafına güclü təkan vermiş ən maraqlı və məhsuldar dövrlərdən biridir. Bu dövrdə söz yaradıcılığı öz genişliyi və müxtəlifliyi ilə seçilirdi. Kiçik formalı şeirlər və iri epik əsərlər, bədii nəsr və poetoloji traktatlar, fəlsəfi, didaktik, dini, tarixi və digər əsərlər dünyanın dərki və onun müəllif sözü ilə çatdırılması prosesini əks etdirirdilər.

Azərbaycan ədəbiyyatı Yaxın və Orta Şərq xalqlarının bədii və mədəni dəyərləri ilə sıx bağlı şəkildə bir neçə dildə yaradılırdı. Xüsusilə, əsərlərin böyük bir qismi əvvəlki yüzilliklərin ənənəsini davam etdirməklə fars dilində yaranırdı.

[18] Rəsulzadə M.Ə.Azərbaycan şairi Nizami. Bakı, 1991, səh. 224-228.

Fars dilində orta əsr ədəbiyyatı və mədəniyyətinin çoxsaylı məşhur nümayəndələri yazırdılar və Azərbaycan şair və mütəfəkkirlərinin bütöv bir pleyadasını qeyd etmək mümkündür ki, fars və türkdilli ədəbiyyatın inkişafına həlledici təsir göstərmişdir. Onlardan Qətran Təbrizi, Fələki Şirvani, Əfzələddin Xaqani, Mücirəddin Beyləqani, İmadəddin Nəsimi və başqaları təkcə Azərbaycan xalqının sərvəti olmamışlar və Şərq ədəbiyyatı sözün əsl mənasında bu şairlərlə qürur duya bilər. Nizami Gəncəvinin əsərləri isə dünya mədəniyyətinin nəhəng əsərləri ilə eyni sırada durur.

Tarixin müxtəlif dövrlərində farsdilli ədəbiyyatın həcmi dəyişirdi, lakin uzun müddət ərzində bədii ənənələri inkişaf etdirən, əvvəlki nəsillərin ideya-estetik nailiyyətlərini zənginləşdirən şeir sənətinin yeni ustadlarının meydana gəlməsi stabil olaraq qalırdı.

Hazırkı dövrdə dünyanın müxtəlif kitabxana fondlarının öyrənilməsi və onlara daxil olan yeni əlyazmaların kataloqlaşdırılması zamanı naməlum və az öyrənilmiş adların açılması davam

edir. Bunun bariz nümunəsi Azərbaycan şairi Cəmali Təbrizinin (1351-1420/25) (1) əsərlərinin elm aləminə daxil edilməsidir.

Cəmali Təbrizinin həyat və bədii yaradıcılığının təsadüf etdiyi XIV əsrin II yarısı-XV əsrin birinci rübünü əhatə edən dövr (2) Azərbaycan müəlliflərinin çoxsaylı ədəbi əsərlərinin yazılması dövrüdür. İmadəddin Nəsimi, Nizaminin davamçısı Arif Ərdəbili, şair və dövlət xadimi Qazı Bürhanəddin və ya fəlsəfi-poetik əsərlərin müəllifi Qasım Ənvarı xatırlamaq kifayətdir. Təbii ki, lirik və epik poeziya müvafiq əsasa malik olmaqla poetik forma və üslub sahəsində varisliyi qoruyaraq əvvəlki ədəbiyyatla sıx bağlı idilər. Bu, Qətran və Şirvan poetik dairəsindən başlayaraq həm ayrı-ayrı zaman kəsiklərinə, həm də XIV əsrin I yarısına aiddir ki, bu dövr də Cəmalinin həyat illərini qabaqlayır.

Övhədi Marağayi və ya Mahmud Şəbüstəri kimi məşhur müəlliflərin adı məhz bu dövrlə bağlıdır. Elə bu dövrdə də epik poeziyanın ən parlaq nümunələrindən biri Əssar Təbrizinin "Mehr və Müştəri" poeması meydana gəlir. XIV əsrin I yarısına maraqlı lakin, təəssüf ki ümumiyyətlə öyrənilməmiş şair Ətiqi Təbrizinin (1343-cü ildə vəfat etmişdir) yaradıcılığı təsadüf edir. Onun Britaniya Milli Kitabxanasında (3) qorunan "Divan"ı həcm baxımından böyükdür.

Şübhəsiz, farsdilli poeziya XIV əsrin Azərbaycan dilində olan ədəbiyyatı ilə qarşılıqlı əlaqədə olmuşdur. Məsələn, Suli Fəqihin "Yusif və Züleyxa", Yusif Məddahın "Vərqa və Gülşah", Mustafa Zəririn "Yusif və Züleyxa" poemaları farsdilli epik yaradıcılığa Övhədi Marağayinin poemalarından az təsir göstərməmişdir. Bu qarşılıqlı təsir ayrı-ayrı şairlərin yaradıcılığında daha çox əks olunurdu, belə ki, onlar öz əsərlərini həm fars, həm də Azərbaycan dillərində, bəziləri hətta üç dildə həm də ərəb dilində yazırdılar. Bu planda İmadəddin Nəsiminin lirikası xüsusilə maraqlıdır.

Lakin bizi ilk növbədə epik poeziya maraqlandırır, çünki dövrümüzə gəlib çatmış Cəmalinin irsini böyük poetik formalar - "Xəmsə"sinin tərkibinə daxil olan beş poeması təşkil edir. Nizaminin məşhur məsnəvilərindən sonra həmin "Beşlik" poetik məharətin simvoluna çevrilmişdir. Onun yüksək səviyyədə yazılması fərdi görkəmli bacarıqları tələb edirdi.

Cəmalinin "Beşliyi" haqqında müasirlərinin dedikləri bizə gəlib çatmamışdır. Peşəkar şair və oxucuların ona münasibəti haqqında da məlumatlar yoxdur. Lakin əsərlərinin yaradıcılıq baxımından əhəmiyyəti heç bir şübhə doğurmur. Bundan başqa, Cəmali tam "Beşlik" yaratmışdır ki, özü-özlüyündə əlamətdar bir hadisədir, çünki nəzirə müəlliflərinin böyük sayı arasında tam "Beşlik" yaradan müəlliflər o qədər də çox deyil. Adətən onlar məşhur, bəziləri isə Əmir Xosrov və Əlişir Nəvai kimi söz sənətinin görkəmli ustadlarıdırlar.

Cəmalinin "Xəmsə"si farsdilli ədəbiyyatda erkən tam "Beşlik" və Azərbaycan ədəbiyyatı tarixində zaman baxımından Nizamidən sonra ilk yazılmış "Xəmsə"dir. Nəzirə ənənələrinin funksionallığı nöqteyi-nəzərindən bu əhəmiyyətli bir məqamdır. Bununla belə Cəmalinin poemaları orta əsrlər Azərbaycan ədəbiyyatı faktı kimi müstəqil dəyərə də malikdirlər.

Bu iki şərt Cəmalinin "Beşliyinə" təsir göstərən amilləri müəyyənləşdirir. Digər əsərlər kimi "Beşlik" özündə Azərbaycan ədəbiyyatının əvvəlki dövrünün bütün xarakterik xüsusiyyətlərini cəmləşdirmişdir. Həmçinin epik poeziyanın janr formaları, məsələn Övhədinin "Dəhnamə" və "Cam-e Cəm", Əssar Təbrizinin "Mehr və Müştəri", xüsusilə Arif Ərdəbilinin "Fərhadnamə"si Cəmali əsərləri ilə uyğunluq təşkil edirdi.

XIV əsr "Xəmsə"yə nəzirə yazılması planında çox da məhsuldar deyildi, bu da yəqin ki, ənənələrin formalaşması ilə izah olunurdu. Əvəzində isə bu yüzillik XV əsrdəki inkişaf üçün baza hazırlamışdı. Belə ki, çoxsaylı məşhur və az tanınan şairlərin hesabına nəzirələrin axını artdı. Bu dövr bütün ədəbiyyat sistemini müəyyən edən normativliyin hökmranlığı zamanı idi, buna baxmayaraq məhz bu dövrdə parlaq fərdilik və istedadla seçilən nəzirə müəllifləri meydana gəldi. XV əsrdə Katibinin əsərləri, "Yeddiliyi" təşkil edən Əbdürrəhman Caminin poemaları, Əlişir Nəvainin məşhur "Xəmsə"si, Məktəbi Şirazinin Nizaminin "Leyli və Məcnun"una ən yaxşı nəzirələrdən olan eyni adlı poeması, məşhur şair Abdullah Hatifinin dörd poemasından üçü yazılmışdır. Amma Azərbaycan ədəbiyyatının nəzirə ənənələrinə töhfəsi bununla tükənmir və onun epik poeziyası öz sərhədlərini təkcə Cəmalinin hesabına genişləndirməmişdir. XV əsrdə daha bir bütöv "Xəmsə" yaradıcısı olan görkəmli Azərbaycan şairi Əşrəf Marağayinin yaradıcılığı da inkişaf etmişdir.

Müxtəlif müəlliflərə aid olan "Xəmsə"lər, nəzirə kimi yazılmış ayrı-ayrı poemalar demək olar bütün Şərqi əhatə edən ədəbi əlaqələrin bariz nümunəsi sayılırdı. Mütləq komponentlərə malik olan nəzirələr Şərq ədəbiyyatlarında, xüsusən fars və türkdilli regionlarda intensiv şəkildə zənginləşən müstəqil təbəqə sərhədlərini göstərirdi. Bu təbəqəyə daxil olan əsərlər tarixi inkişafın müxtəlif mərhələlərində xalqların ədəbi və mədəni ənənələrini çatdırır, ənənəvi xüsusiyyətlərlə yanaşı yeni mədəni mühitdə yaranan təmayülləri təcəssüm etdirirdilər.

Şairin həyatı haqqında çox az məlumat qorunmuşdur. Bizə Cəmalinin uşaqlıq və gənclik illərinin necə keçməsi, harada oxuması, necə təhsil alması məlum deyil. Yəqin ki, təhsili ənənəvi olmuşdur, birinci növbədə Quranı və dini ədəbiyyatı öyrənmişdir. "Xəmsə"yə əsasən demək olar ki, Cəmali həm də tarix, coğrafiya, astronomiyanı yaxşı bilmiş, ana dili ilə yanaşı fars dilini və görünür ərəb dilini bilmişdir, fəlsəfə, sufizmin nəzəriyyəsi, həm də hürufilik təlimi ilə tanış olmuşdur.

Cəmalinin şeirin incə ustadı kimi əvvəlki ədəbi və folklor ənənəsindən yaxşı başı çıxır, qədim rəvayət və əfsanələri, poeziyanın məşhur nümayəndələrinin yaradıcılığını, nəsr əsərlərini bilirdi. Şair topladığı intellektual təməl və zəngin həyat təcrübəsindən "Xəmsə"də istifadə etmişdir. O öz poemalarına yaradıcı şəkildə yanaşmış və bir az sonra yaranmış Əşrəf Marağayinin "Xəmsə"si kimi onları ən yaxşı nəzirə nümunələrindən biri saymaq olar.

Cəmali beş poemasında "Beşliyə" aid olan elə yeniliklərə istiqamətlənir ki, hələ əsası nəzirə ənənəsinin banisi Əmir Xosrovun "Xəmsə"sində qoyulmuşdu. Cəmalinin "Beşliyinin" janr tərkibi pozulmur və ona didaktik, aşiqanə-romantik, qəhrəmanlıq-didaktik əsərlər daxildir. Onun əsərlərində həmçinin haşiyəli nəzm povesti də görmək olur ki, təqlid seriyasından daha çox prototipə yaxındır.

Cəmalinin ilk poeması "Töhfətül-əbrar" (1390-cı ildən sonra) məzmun və forma parametrlərinə görə Nizaminin "Məxzənül-əsrar"ı ilə sıx bağlıdır. Poemada toxunulan məsələlər kifayət qədər geniş olsa da, didaktik problematika, təlimatlar və nəsihətlər üstünlük təşkil edir. Müəllif ictimai həyatın müxtəlif sferalarına nəzər salır, ictimai quruluşun aktual problemlərinə, insanların davranışına müraciət edir, orta əsr cəmiyyətinin ierarxiya strukturuna toxunur, dünyanın yaranışını müzakirə edir, fəlsəfi tematikanın dərinliklərinə gedir.

"Töhfətül-əbrar"ın çox motiv və məzmunları sonra digər poemalara ötürülür və ümumilikdə şairin ictimai-siyasi, ədəbi-estetik baxışını xarakterizə edir. O, xüsusilə diqqəti hakimiyyət və onun ədalətli olmasına yönəldir ki, bütün "Xəmsə" boyu ardıcıl şəkildə şərh olunur.

Bədii əhəmiyyət nöqteyi-nəzərindən "Töhfətül-əbrar"ın daha maraqlı hissələri novellalardır. Bir sıra yazılı abidələr və folklor süjetlərini daxil etməklə onlar janr xüsusiyyətlərini qoruyur və bununla yanaşı təhkiyənin gücləndirilməsi, dünyəvi reallıqlara yaxınlıq, vəziyyətin adiliyi və onun həllinin müstəsnalığı cəhətləri ilə fərqlənirlər. Bu cəhətlər nəzirədə baş verən və eyni zamanda ifadə üslubunu da əhatə edən dəyişikliklərlə yanaşı bütün ədəbiyyat sistemində özünü göstərən proseslərlə də şərtlənirdi.

"Töhfətül-əbrar"da başlayan prototipin interpretasiyası sonra "Mehr və Nigar"da (1403) davam edir ki, aşiqanə-romantik eposu "Məhzun və Məhbub"la (1412) birgə təmsil edir. Bu nəzirələrin süjet xətti Nizaminin "Xosrov və Şirin" və "Leyli və Məcnunundan" fərqlənir. Buna baxmayaraq, çoxlu epizod və süjet vahidləri, mətnin ayrı-ayrı parçaları, kompozisiya elementləri, personajlar sistemi və onların hərəkətləri Cəmalinin böyük xələfini izləməsindən xəbər verir.

"Mehr və Nigar"ın struktur-məzmun quruluşu, konfliktin xarakteri, obrazların təsviri çoxsaylı orta əsr məhəbbət əsərlərini xatırladır. Hadisələrin gedişatının mərkəzində sevgili cütlüyü durur. Müəllif qəhrəmanların hissləri və romantik təmayüllərini əks etdirərək onların psixologiyasını açır. Lakin obrazların traktovkası stereotip başlanğıca uyğun olaraq özünü portret, emosiyaların təsvirində büruzə verir ki, eşq konsepsiyası ilə bağlı olan dünyəvi məqamları nəzərdə tutur.

Dünyəvi çaları ilə seçilən məhəbbət mövzusu da "Xosrov və Şirin"ə nəzirədə normativ komponenti təşkil edir. Bu poemaya nəzirə yazan müəlliflər bir qayda olaraq məhəbbət və onun dünyəvi dərki haqqında danışırdılar. Bu fərdi təşəbbüsün daralması mənasında deyildi. Belə ki, konkret tematik hallər çox müxtəlif idi və bəzən elə cəhətlər arasında əlaqələr kəşf edirdi ki, buna "Mehr və Nigar"da ifadə üslubunun "aşağı düşməsini" misal göstərmək olar.

Aydındır ki, belə “tənəz"zül” Cəmali “Xəmsə”sinin tendensiyalarından biri kimi çıxış edir. O, sonradan “Məhzun və Məhbub”da özünü büruzə verir ki, burada “Mehr və Nigar”dan fərqli olaraq başqa bir ifadə tələb edən digər məhəbbət modeli işlənilir. Üçüncü poemada məhəbbət eposunun normativliyi daha güclü göstərilir. Amma baş qəhrəmanların obrazlarının şərhi və onların əlaqələri artıq dünyəvi ruhda deyil, ilahi məhəbbət prizmasından göstərilir.

“Məhzun və Məhbub”da məhəbbət hissləri mistik çalar qazanır və bu ümumi tonallıq bütün əsəri əhatə edir. Bu noqteyi-nəzərdən müəllif qeydləri və hətta ayrı-ayrı beytlərin bədiiliyi aktuallaşır. Eyni zamanda “Məhzun və Məhbub”un dərin təbəqəsi sanki dünyəvi istiqamət məqamlarını əhatə edən daxili təhkiyəyə qarşılıqlı təsir göstərir. Bunlar poemanın sinkretikliyi, özünəməxsus “rassionallığa” gətirib çıxarır ki, personajların hərəkətlərinə təsir edir və mistik motivləri gündəlik reallıqlarla yaxınlaşdırır.

Mənəvi-etik mövzulara qayıdış “Xəmsə”sinin dördüncü hissəsi “Həft ourəng”də (1418) baş verir. Əsər Nizaminin “Həft peykər”i kimi haşiyəli kompozisiyadan istifadə ilə qurulmuşdur və iki komponentdən ibarətdir: haşiyə və yeddi əlavə olunmuş hekayəsi.

Əgər Cəmalinin aşiqanə-romantik nəzirəsində prototipin birbaşa müşayiətindən imtina olunursa, “Həft ourəng”də fərdi üslubun başqa xüsusiyyəti və materiala yanaşma görünür. Şair ardıcıl olaraq tanış olan süjeti işləyir, amma personajları, o cümlədən əsas qəhrəmanı dəyişir.

Haşiyəli povest olan “Həft ourəng”də şeirin formal göstəriciləri digər davamçılardakı kimi sadə və bitmiş deyil. Bunun öz üstünlüyü vardır. Belə ki, qəhrəmanın xarakterinin daha tam açılması və əsərin ideya əsasının genişlənməsi üçün imkan yaranır.

Şairin diqqəti haşiyədə şaha – hakimiyyətin daşıyıcısı obrazına yönəlir ki, həmçinin burda məna vurğusu hakimiyyət ideyası ilə bağlı olan ədalət, şərin mütləq cəzalandırılması, zorakılığın uğursuzluğu kimi aspektlərdə açılır. Öz növbəsində hökuməti idarə edən şəxsin görünüşü detallaşdırılır və monarxa uyğun insani xüsusiyyətlərlə təsvir olunur. Bundan başqa, şahın timsalında epik qəhrəman və romantik personajın xüsusiyyətləri qarışır.

Haşiyəli şeir povestinə xas olan didaktik əyləncəli başlanğıc “Həft ourəngin” hər iki komponentində aşkar olunur, lakin bununla münasibətdə şübhəsiz novellalar üstünlük təşkil edir. Onlarda insanların şərəf və ləyaqət, ağıla tabeçilik, düzgün davranış məsələləri qaldırılır; xəyanət, əyrilik kimi alçaq vərdişlər tənqid olunur.

Novellalar “Həft peykər” süjetlərindən, digər mənbələrdən iqtibas olunmuş, nağıl modellərinə əsasən qurulmuşdur. Onlarda şəhər həyatının, saray məişətinin əlamətləri və eyni zamanda fantastik elementlər əks olunur. Geniş və rəngarəng material nizamsız görünmür, orta əsr novellistikasına yaxşı tanış olan üsullardan istifadə ilə əyləncəli formada təqdim olunur.

“Həft ourəng”də prototipin işlənmə xüsusiyyətləri “Xəmsə”nin sonuncu hissəsi “İskəndərnamə”yə nəzirədə izlənilir. Əsər öz məzmununa əsasən digər poemalarda işlənmiş, daha da zənginləşdirilmiş və dərinləşdirilmiş (qorunan mətnə əsasən mühakimə yürütmək olar) eyni ideyalar çərçivəsində yerləşir. Bu xüsusilə monarx obrazı və hakimiyyət ideyasına aiddir.

Nizaminin digər ardıcılları kimi Cəmali əzəmətli şahın qeyri-adi şəxsiyyətinin taleyinə müraciət edir, bu və ya digər problemləri “İskəndərnamə”nin qəhrəmanlıq-fəlsəfi aksentindən bir qədər fərqlənən qəhrəmanlıq-didaktik səviyyədə həll edir. Onun baş qəhrəmanı özündə elə xüsusiyyətləri cəmləşdirir ki, fərdi xarakteri, personajın hərəkətləri və psixologiyasını aydınlaşdırmaqla yanaşı hökmdarın şəxsiyyətinin dərki və təqdim olunması cəhətdən əhəmiyyətlidir.

Sonuncu əsərin janr spesifikası kompozisiya quruluşunda da əks olunur, belə ki dinamik ifadə, zəngin qəhrəmanlıq fraqmentləri, döyüşlərin təsviri, didaktik funksiya daşıyan statik saqinamələrlə əvəzlənir.

Cəmalinin “Xəmsə”si digər nəzirələrdə olduğu kimi eyni prinsip və poetik materialının təşkili üsullarına əsaslanır. Bunlar bütün əsər boyu süjet sahəsində müşahidə olunan mütənasiblik, yerdəyişmə, seçicilikdən ibarətdir. Eynitipli nəzirələrlə oxşarlıq məkan-zaman münasibətlərində, həmçinin bədii stereotiplərin o cümlədən təbiətin təsviri, personajların portreti və s.-də müşahidə olunur. Onlarda aparıcı rolu bədii kütlələrin seçimi ilə yanaşı fraqmentlərin semantikası və onların sonrakı hadisələrlə qarşılıqlı əlaqəsi oynayır.

Cəmali Təbrizinin poemaları orta əsr Azərbaycan ədəbiyyatı tarixində çox mühüm hadisə xarakterini daşıyır. Ustadın əli ilə yaranmış

əsərlərdə müvafiq dövr poeziyasının xarakterik cəhətləri əxz olunmuşdur, eyni zamanda onlar Nizami ənənələrinin inkişafın və nəzirə məcrasında bədii dəyərlərin irəliləyişində mühüm rol oynamışdır.

**Qeydlər:**

1. Onun "Xəmsə"si Londonun İndia Offis kitabxanasında qorunan hələlik yeganə nüsxədə məlumdur. (bax. Ethe H. Catalogue of Persian Manuscripts in the Library of the India Office – Oxford, 1903, vol.1, №1284

2. Dəqiq deyilsə onun yaradıcılığının böyük hissəsi XV əsrə təsadüf edir; bu dövrlə onun poemalarında olan tarixlər bağlıdır. Amma aydındır ki, şair öz əsərlərini XV əsrin II yarısında da yaratmışdır.

3. Rieu Ch. Supplement to the Catalogue of the Persian Manuscripts in the British Museum – London, 1895, p. 170

**Mehdi Kazimov**

**Imitative poems written to Nizami`s "Khamsa" in the 14th and 15th centry`s Azernaijani literature (based on Jamali`s "Khamsa")**

***Summary***

XIV-XV cc. in the history of medieval Azerbaijani literature is one of the most interest and fruitfulness period which gave a powerful intensive to its following development. At this time creative work was notable for breadth and variety, which were reflected in the many works of Azerbaijan poets and thinkers. One of the little known authors of the XIV-XV cc. was the poet Jamali Tabrizi. His literary heritage reached to our days are the big poetical forms, five poems which compile "Khamseh". Jamali continued traditions of Nizami. His "Khamseh" is one of the earliest full "Khamseh" in Persian-language literature and the first according to the time in the history of Azerbayjan literature.